Azad Azərbaycan

1 iyul/ 2021

# Oqtay Ərgünəş:
# Sözün qüdrəti, kəlamın hikməti

Təbiət gözəlliklərini yaradan düşüncə kimi insanlar da müdrik olmalıdırlar.

***

Arzu və istək bizim içimizdə yaranır.

***

Adamı incə dirijor çubuğu ilə ovsunlayıb, məhvərindən çıxarır, sonra isə zopa ilə vururlar.

***

Mənəvi saflıq insanı ucaldar.

***

Yüksək mənəviyyat şərəfli həyatın meyarıdır.

***

Elələri var ki, cəsarət edib evində deyə bilmədiyini kütlələr qarşısında açıqlayır.

***

Qəlbində nifrət gizlədəndə öz qarşısına çıxar.

***

Söz əbədiyaşardır, həm də bəşəriyyəti yaşadır!..

***

Günahdan uzaq olun, yalnız xeyirxahlıq ucaldar sizi.

***

Yaxşı işlər görənə haqsızlıq etməzlər.

***

Ehtiyac ucundan bəd əməllərə qurşanmayın.

***

Ağıl, düşüncə başda olur, başınızı həmişə uca tutun!

***

Müdriklərin öyüd-nəsihətinə qulaq asmaq xeyir gətirər.

***

Təkəbbürlük insanı ucaltmaz.

***

İnsanları haqq yolundan sapındıranlara aman verməyin!

***

Zəfər də, məğlubiyyət də əqil və düşüncənin gücündədir.

***

Dünya malından yüksək olan ad-sana çatmaq daha şərəflidir.

***

Qurani-Kərim və islamın insanlara bəxş etdiyi bəşəri duyğular dünyanın əşrəfi olan, mübarək insani xüsusiyyət böyük tərbiyəvi mahiyyət daşıyır və mənəvi dəyərlərin fövqündə durur.

***

Dəyərli ziyalılar xalqımızın mənəvi sərvətidir.

***

Ağsaqqal var, sözü bir dürdür!
Ağbirçək var, özü bir nurdur!
Ağsaqqal, ağbirçək qədrini bilin!



***

Özündən hesab istə: biz əsrləri düz yolla getmişikmi? İndi haraya və necə gedirik!?

***

Arzu və istək, ehtiyac, düşdüyün çətinliklər insanı yeni həyata ruhlandırır.

***

İnsan inkişaf etdikcə onun təzahürlərində təbiətdən və yaradandan daha çox uzaqlaşırıq...

***

Bizdən sonra qalanları işgüzar, xeyirxah dostlarla qurub-yaratmışıq. Zaman özü qiymətləndirəcək.

***

Yaltaqlığı da hörmətdən salıblar. Vaxt vardı yaltaqlıqla ailə-uşaq, ev-eşik saxlayardılar, hörmət-izzəti də öz yerində. Məddahlıq indi daha şıdırğı gedir. Vay bizim halımıza.

***

Qızıl-zinət əşyaları hərisliyi, varlanmaq ehtirası adamları insanlıqdan çıxarır, milli-mənəvi dəyərlərimizə zərbə vurur.

***

İnsan bir əşyasını itirirsə, onu hər yerdə, həmişə axtarır. Lakin, bəzi insanlar şəxsiyyətini itirdikdə, çox təəssüf ki, onu heç yerdə axtarmırlar.
İnsan şəxsiyyəti isə hər şeydən ucadır!

***

Dağılmış iqtisadiyyatı bərpa etmək olar, məişətimizi daha da gözəlləşdirmək üçün yaraşıqlı binalar ucaldılar, xiyabanlar düzənlənər, lakin çirkaba bulaşmış mənəvi əxlaqı yenidən saflaşdırmaq olduqca çətin məsələdir.

***

İnsanı mükəmməlliyə aparan dəyərlər çoxdur: haqq-ədalət, ədəb, yaranmışlara məhəbbət, Vətən, ata-ana sevgisi, mərhəmət, dostluq, həqiqət, səxavət, mərifət, bacarıq, istedad və zəhmət insan mükəmməlliyinin məhək daşıdır.

***

İnsanlar qəti əmindirlər ki, nə din, nə də elm ən mühüm həyatı sullara cavab verə bilməz.

***

Haqq yolun ən dəyərli neməti olan mərifət, ədəb insanı haqqa yüksəldən, kamilliyə çatdıran mənəvi dəyərdir.

***

Əqildən kasad olanlar müdirk və düşüncəli ola bilməzlər.

***

Nəsillərin gələcəyi barədə düşünən şəxsiyyətin mənəviyyatı fəxarət doğurur.

***

Öz əxlaqının zəif cəhətlərini tapıb, çirkablardan təmizlənməyən cəmiyyət səadətə çata bilməz.

***

Haqq-ədaləti üstün tutan millətlərə hömət və ehtiram var, azğınlığa meyilli millətlərsə İlahi tərəfindən cəzalandırılır.

***

Həqiqət həmişə hərəkətdə olur, zaman-zaman saflaşır, büllurlaşır.

***

İnsanların ruhu çirkləndikcə, haqq-ədaləti və həqiqəti dərk etmək də çətinləşir.

***

Çirkablığa rəvac vermiş cəmiyyətdə paklığa, haram tikə yeməyənlərə, yalan danışmayan vicdanlı insanlara heç də həmişə lazımi qiymət verilmir.

***